# CONFLICTS: THE FEATURES OF SCHOOL CONFLICTS

**Saida Akhmedova**
Training Support Center of the Education Department of Baku,
School environment and psychological service head of the
organizational department
E-mail: saidaaxmedova0323@gmail.com
https://orcid.org/0000-0001-6316-7308

**Abstract.** The article emphazies with the conflicts of student-student, teacher-parent, parent-child, school-parent-student,which concern parents as well as the educational community, especially the features of school conflict and reasons of occur. The author describes the difficulties faced by teachers, students and parents in a wide range of relationships in the school environment, which develop in a series of conflicts in the educational process. The author sees the reason for this in the fact that parents do not pay enough attention to their children, do not allocate enough time, and in some cases, the parents, class teacher, student. Experience has shown that in modern times, an authoritarian environment increases tension, which results in apathy, resentment or aggression, which in turn often leads to a sharp deterioration of relationships, and sometimes to the deformation of the personality. The early detection of the problem, its elimination in a faster and more constructive way can help prevent a number of complications.
**Keywords:** conflict, school, teenager, teacher, student, parent, prevention, psychological correction.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.8
**To cite this article:** Akhmedova S. (2021). Conflicts: school conflicts features. *Journal of Preschool and Primary Education*, Vol. 237, Issue IV, pp. 59-81
**Article history:** received – 27.10.2021; accepted - 15.11.2021.

# MÜNAQİŞƏLƏR: MƏKTƏB MÜNAQİŞƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

**Səidə Əhmədova**
Bakı şəhəri üzrə Təhsil İdarəsinin Təlimə
Dəstək Mərkəzi, Məktəb mühiti və psixoloji xidmətin
təşkili bölməsinin müdiri
E-mail: saidaaxmedova0323@gmail.com
https://orcid.org/0000-0001-6316-7308

**Annotasiya.** Məqalədə müasir məktəblərdə şagird–şagird, müəllim–şagird, müəllim–valideyn, valideyn–uşaq, məktəb–valideyn–şagird üçbucağında rast gəlinən, valideynləri, eləcə də təhsil ictimaiyyətini narahat edən münaqişələrdən, xüsusən məktəb münaqişələrinin xüsusiyyətlərindən, onların yaranma səbəbləri və bu problemi aradan qaldırmağın yollarından bəhs edilir. Müəllif məqalədə məktəb mühitində geniş münasibətlər diapazonuna daxil olan, təlim-tərbiyə prosesində münaqişələr ardıcıllığında inkişaf edən müəllim, şagird və valideynlərin qarşılaşdıqları çətinliklərin səbəbini valideynlərin övladlarına qarşı etinasızlığında, onlara kifayət qədər diqqət göstərilməməsində, lazımi qədər vaxt ayrılmamasında, bəzi hallarda isə münaqişəli valideyn, müəllim, sinif rəhbəri, şagird şəxsiyyətlərində görür. Təcrübə göstərir ki, müasir dövrdə avtoritar mühit gərginliyi artırır, onun nəticəsi isə apatiya ilə, həyatdan küskünlük və ya təcavüzkarlıqla nəticələnir ki, bu da öz növbəsində, bir çox hallarda münasibətlərin kəskin şəkildə pozulmasına, bəzən də şəxsiyyətin deformasiyasına gətirib çıxarır. Problemi vaxtında aşkar etmək, onu daha tez və konstruktiv yollarla aradan qaldırmaq bir sıra fəsadların qarşısının alınmasına şərait yarada bilər.
**Açar sözlər:** münaqişə (konflikt), məktəb, yeniyetmə, müəllim, şagird, valideyn, profilaktika, psixokorreksiya.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.8
**Məqaləyə istinad:** Əhmədova S. (2021). Münaqişələr: məktəb münaqişələrinin xüsusiyyətləri. «Məktəbəqədər və ibtidai təhsil», № 4 (237), səh. 59-81
**Məqalə tarixçəsi:** göndərilib – 27.10.2021; qəbul edilib – 15.11.2021.

## Giriş / Introduction

*Conflict* mənşəcə yunan dilindən keçmə söz olub, mənası “münaqişə” deməkdir. **Konfliktologiya** – münaqişələrin yaranması və inkişafı mexanizmləri, qanunauyğunluqları haqqında biliklər sistemidir. Buraya həm də münaqişələrin idarə olunması prinsipləri və texnologiyaları daxildir. Konfliktologiyanın obyektinə münaqişənin bütün formaları, predmetinə isə hər hansı bir münaqişənin yaranması, inkişafı və bitməsini xarakterizə edən ən ümumi biliklər daxildir.

Konfliktologiyanın predmeti haqqında ən ümumi təsəvvürü «konfliktologiya» sözünün lüğəvi mənası, yəni «münaqişələr haqqında elm» verir.

Müasir konfliktologiya – kifayət qədər inkişaf etmiş elm sahəsidir. Onun əsasını fəlsəfə, sosiologiya və psixologiya elmləri formalaşdırır. Yeni elm sahəsi olan konfliktologiyanın meydana gəlməsində bir sıra başqa elmlər də – tarix, politologiya, iqtisadiyyat, sənətşünaslıq, hüquqşünaslıq, idarəetmə və s. müəyyən rol oynayıb.

Konfliktlər XX əsrdə milyonlarla insanın məhvinə səbəb olmuşdur. İki dünya müharibəsi, 200-dən artıq irimiqyaslı müharibələr, lokal hərbi münaqişələr, terror hadisələri 300 milyon insanın həyatını itirməsi ilə nəticələnmişdir.

## Əsas hissə / Main part

Çox zaman münaqişələr müxtəlif təşkilatların fəaliyyətində həlledici rola malik olur. Məktəbdə müəllim–şagird–valideyn münasibətlərində yaranmış münaqişələrin həlli yollarının tapılması şagirdlərin təlim-tərbiyəsində müsbət nəticələr əldə olunmasına gətirib çıxarır. Bu elm sahəsi yeni yaranmağa başlamışdır. Bu sahədə mütəxəssislər, demək olar ki, yox səviyyəsindədir. Əldə olan əsərlərin təhlili göstərir ki, münaqişələri, təxminən ondan artıq elm sahəsi öyrənir. Münaqişələr – politologiya, psixologiya, pedaqogika, sosiologiya, fəlsəfə hüquqşünaslıq və konfliktologiya elmlərinin obyektidir.

Konfliktologiyada münaqişələrin bütün növləri eyni səviyyədə öyrənilməyib, məsələn, şəxsiyyətlərarası münaqişələrin öyrənilməsinə əsərlərin 83%-i həsr edilmişdir, lakin şəxsiyyətdaxili münaqişələrin öyrənilməsinə cəmi 8%-i həsr edilmişdir. Beynəlxalq əlaqələr sahəsində münaqişələrə həsr edilmiş tədqiqatların təxminən 5%-i metodoloji, ümumnəzəri xarakter daşıyır. Bundan əlavə, psixoloqlar insan fəaliyyətinin müxtəlif sahələrində – əmək kollektivlərində, hərbçilər, idmançılar, məhbuslar arasında, pedaqoji fəaliyyətdə, ailələrdə, insanın sosiallaşması prosesində, məktəbəqədər yaş dövründə, yeniyetməlik dövründə və s. münaqişələri öyrənirlər.

***Münaqişə – sosial və psixoloji-pedaqoji fenomen kimi.*** Münaqişə həmişə bir-birinin əksinə yönəlmiş dəyərlər, maraqlar, motivlər və ya fikirlər əsasında yaranır. Hər hansı bir mövzuda münaqişə başlaya bilər: ehtiyatsızlıqla deyilmiş söz, bağ evindəki hasarın hündürlüyü, yuyulmamış qablar, yerinə yetirilməmiş tapşırıqlar və s. Münaqişələrin əsası müxtəlif şəxsiyyətdaxili səbəblər ola bilər, məsələn, daxili ehtiyac və sosial norma arasında, fərdin müxtəlif rolları arasındakı ziddiyyətlər, yaxşı və pis əməl arasında seçimin çətinliyi. Münaqişələri gücləndirən və ya zəifədən amillər arasında genetik amillər, yəni insanın münaqişəyə meyilliliyi, cinsi, yaşı, bədənin reaktivliyi və o andakı funksional vəziyyəti rol oynayır. Şəxslərarası qarşıdurmalar, xoşagəlməz münasibətlər, fərdlərin psixoloji və mədəni cəhətdən uyğunsuzluğu, uyğun olmayan davranış, aclıq, həsəd, qəzəb, təzyiq, yorğunluq, qıcıqlanma, yerinə yetirilməmiş işlər, rəqabət, həmçinin bir insanın özünəməxsus daxili quruluşu və qeyri-sabit dəyərlərə istinad etməsi nəticəsində meydana gəlir. Münaqişələr insanın daxili ziddiyyətlərinin və xarici maneələrlə toqquşmaların nəticəsi olduğundan qaçılmaz, qarşısıalınmaz və həyatı boyu həll etməli olduğu problemləri təmsil edir. "Münaqişələr – bir-birinə zidd olan maraqların, baxışların, istəklərin ciddi fikir ayrılığına, mübarizəyə aparan kəskin mübahisələrdir. Geniş mənada, münaqişə – tərəflər arasında toqquşma, qarşıdurma kimi başa düşülür" [Qrebenkin Y.V., 2013].

Sosiologiyada münaqişə bir tərəfin qarşı tərəflə qarşıdurma və ya açıq mübarizə vəziyyətində olduğu bir müddət və ya vəziyyət kimi başa düşülür, çünki məqsədlər öz hədəflərinə zidd olaraq qəbul edilir. Eyni zamanda, *sosial münaqişə* anlayışı fərdlər arasında qarşıdurmadan dövlətlərarası və silahlı qarşıdurmalara qədər müxtəlif səviyyəli münaqişələri əhatə edir. Sosial münaqişə tərəflərdən birinin digər tərəfin və ya bütövlükdə cəmiyyətin motivləri ilə ən azı uyğun olmayan hisslər, düşüncələr və ya motivlər yaşadığı, iki və ya daha artıq şəxslə qrup, yaxud təşkilat arasında qarşılıqlı əlaqə kimi müəyyən edilir.

Münaqişələr psixologiya elmində fundamental problemdir. Sosial psixologiyada insanın münaqişəli davranışının nəzəri əsasları öyrənilir, əsasən, şəxsiyyətdaxili, şəxsiyyətlərarası münaqişələr araşdırılır və təhlil olunur. Rusiya psixoloqlarını daha çox şəxsiyyətdaxili, ailə münaqişələri, həmçinin təhsil müəssisələrində və hərbi kollektivlərdə baş verən münaqişələr maraqlandırır. Xarici psixoloqlar təşkilati münaqişələri, "aqressor" və "qurban"ın subyektiv və ya obyektiv fikirlərini, liderlik uğrunda mübarizə metodlarını, münaqişə zamanı baş verən hadisələri, insanın fərdi psixoloji xüsusiyyətlərinin onun münaqişə davranışına təsirini, sosial münaqişələr psixologiyasını və s. öyrənirlər.

Yerli və xarici pedaqoqların əsərlərində təhsil qrupundakı ziddiyyətlərin öyrənilməsi, *mobbinq* (psixoloji şiddət), məktəblilər arasında şəxsiyyətlərarası münaqişələr, müəllimlər və şagirdlər arasında ziddiyyətlərin qarşısının alınması

və aradan qaldırılması, münaqişə vəziyyətlərinin pedaqoji təhlili, onların formalaşması problemi, nəzəri və praktik məsələlərə, müəllimlərin təhsil prosesindəki münaqişələri həlletmə bacarığına və s. xüsusi əhəmiyyət verilir.

Məktəb – sosiumun elə bir hissəsidir ki, burada böyüklər də, kiçiklər də qarşılıqlı həyat təcrübəsi əldə edirlər. Burada xarakter, iradə, əməksevərlik və s. şəxsi keyfiyyətlər tərbiyə olunur, dəyərlər sistemi formalaşır. Müəllim, şagird və valideynlər geniş münasibətlər diapazonuna daxil olur, təlim-tərbiyə situasiyalarında, münaqişələr ardıcıllığında inkişaf edirlər. Mübahisələr, münaqişələr məktəb həyatının ayrılmaz hissəsinə çevrilir. Məktəb rəhbərliyi və müəllimlərə bu münaqişələri həll etmək həmişə müyəssər olmur.

Pedaqoji prosesdə *münaqişə* − mübahisə edən tərəflərin şəxsi inkişafına zəmin yaradan konstruktiv həll və ziddiyyətlərin təzahür formasıdır. Məktəbdə münaqişə − şagirdlər arasında fiziki və psixoloji münaqişələr, müəllim və şagirdlərarası münasibətlərin pisləşməsidir. Məktəblərdə ən çox müşahidə olunan münaqişələr bunlardır:

- məktəblilər arasında münaqişələr;
- şagirdlər, müəllimlər və valideynlər arasında münaqişələr;
- həmkarlar və məktəb rəhbərliyi ilə münaqişələr.

Məktəb müəllimlərinin fəaliyyətlərini uzun müddət müşahidə etdikdən sonra müəyyən olunmuşdur ki, stress və emosional tükənmə sindromunun əsas mənbələrindən biri müəllimlərlə şagirdlər arasında baş verən münaqişələrdir. Əksər müəllimlər qeyd edirlər ki, müasir məktəblilər özlərini çox sərbəst aparır, müəllimlərlə yaşıdları kimi danışırlar. Bu o deməkdir ki, müəllim öz pedaqoji təcrübəsinə istinad edərək, münaqişədən əvvəl və münaqişə situasiyalarında onlarla incə davranmalıdır.

Müəllimlərin əksəriyyətinin fikrinə görə, təhsil sahəsində ortaya çıxan bütün münaqişələr arasında ən geniş yayılanı şəxsiyyətlərarası ziddiyyətlərdir. Nəticə etibarı ilə, pedaqoji fəaliyyətin bu subyektiv tərəfinin konkretləşdirilməsi, təhsil müəssisələrində münaqişəli münasibətləri formalaşdıran amillərin təhlili üçün əsas verir. Pedaqoji münaqişələr, ilk növbədə, "fikir maneə"ləri, müəllimlər və şagirdlər arasındakı yanlış və ziddiyyətli münasibətlər əsasında formalaşdığından müəllimin təlim-tərbiyə fəaliyyətinə, eləcə də şagirdin təhsilinə verilən obyektiv qiymət onların qarşılıqlı münasibətlərinin öyrənilməsinə əsaslanmalıdır. Bundan əlavə, ailə – məktəb sistemində münaqişəli münasibətlərin formalaşmasına xüsusi diqqət yetirilməlidir ki, bu da müəyyən dərəcədə problemli şagirdlərlə deyil, həm də müəllim və valideynlərlə psixoloji, pedaqoji iş metodlarının optimallaşdırılmasına imkan verəcəkdir.

Münaqişələrə səbəb olan obyektiv amillər hər zaman olub, var və olacaqdır. Şübhəsiz ki, onlar nəzərə alınmalıdır, lakin buna baxmayaraq, məktəb mü-

naqişələrinin meydana gəlməsi və həlli məsələlərində əsas rol subyektiv amillərə, hər şeydən əvvəl, müəllim, şagird, valideynlər və məktəb rəhbərliyi arasında düzgün qurulmayan münasibətlərə verilir.

***Kiçik yaşlı və yeniyetmə şagirdlərin münaqişəli davranışları.*** İnsan həyatı üç əsas mərhələdən ibarətdir: uşaqlıq, gənclik və yetkinlik. Az-çox sosial təcrübəsi olmasına baxmayaraq, müəyyən ilkin psixoloji və təhsil hazırlığına malik olan məktəbli özünü yeni bir sosial sistemdə tapır. Məktəbdə təhsil yalnız xüsusi səliqə-sahmanla deyil, həmyaşıdları və böyüklərlə yeni qurulmuş münasibətlər, daha yüksək tələblər və qiymətlərlə də prinsipcə fərqlənir. Valideynlər və digər böyüklər onunla məktəbli kimi davranmağa başlayırlar. Gündəlik rejim dəyişir, uşaq masa arxasında oturmağa daha çox vaxt sərf etməli olur, ixtiyari hərəkətlərin və gəzintilərin sayı azalır. Valideynlər tərəfindən psixoloji təzyiq güclənir, məktəbli böyüklər tərəfindən ancaq təhsil fəaliyyətindəki uğurlarına əsasən qiymətləndirilir. Uşaqlarda tez uyğunlaşmağın mümkün olmadığı və təsirsiz ötüşməyən əlverişsiz vəziyyətlərin təsiri altında nevrotik hallar yarana bilər. Kiçik yaşlı məktəbli evdən və valideynlərindən ayrı qalmaqda çətinlik çəkir, müəllimə öyrəşə bilmir. Dərs yükü, məhdudiyyətlərin artması və böyüklərin psixoloji təzyiqi nəticəsində gərginlik yaranır. Bu şərtlər altında yaranan əsəbi reaksiya valideynlərin tələbkar münasibətinə, bu şəraitin hər uşağın psixikasına olan təzyiqinə qarşı cavabıdır.

Məktəbə hazırlıqlı olmayan uşaqda hər şeyi əvvəlki kimi saxlamaq istəyi müşahidə edilir. Əgər ailədə də problem varsa, uşaq məktəbə gələndə həmyaşıdlarına nisbətən daha əsəbi davranır: kobudluq edir, böyüklərin tələblərini yerinə yetirməkdən imtina edir, iradlara son dərəcə əsəbi reaksiya göstərir, mübahisələrə girir, əşyaları ətrafa atır, dərs ləvazimatlarını korlayır və s.

İbtidai sinif müəllimləri qeyd edirlər ki, dərs yükünün öhdəsindən gələ bilməyən və daha uğurlu yaşıdları ilə müqayisədə özlərini natamam hiss edən uşaqlar daha münaqişəli olurlar. Onların fikrincə, aşağı səviyyədə oxuyan, qeyri-adekvat uşaqlar liderliyə can atır, istənilən təlim çətinliklərinə mənfi və aqressiv reaksiya verir, müəllimin tələblərini, tapşırıqları yerinə yetirməkdən imtina edirlər. Onlarda yaranan mənfi emosiyaların əsasında tədrisə verilən yüksək tələblərlə özünə inamsızlıq arasında uyğunsuzluq durur. Bu münaqişənin nəticələri şagirdin yalnız akademik göstəricilərinin aşağı düşməsinə deyil, həm də məktəbə adaptasiyasının pozulması əlamətləri fonunda sağlamlıq vəziyyətinin pisləşməsinə gətirib çıxarır.

Mübahisə edib münaqişə yaratmağı, demək olar ki, bütün uşaqlar bacarırlar, lakin yaşıdları arasında müəyyən rol və ya status iddia edən uşaqlar daha aqressiv olur və özlərini adekvat aparmaqda çətinlik çəkirlər. Məktəblilərin müəyyən çevrəsi üçün diqqət mərkəzində olmaq və liderlik etmək son dərəcə vacibdir. On-

ların sosial iddiaları çox yüksək və real vəziyyətə zidd olur. Məktəbin sərt tərbiyə çərçivəsinin affektiv uşaqların psixikası üçün olduqca dar olduğu ortaya çıxır. Qeyri-adekvat davranışlarla öz zərərlərini kompensasiya etmək cəhdləri onları həmyaşıdlarının rəyindən, təsdiqindən və qiymətləndirməsindən xüsusi asılılığa salır ki, bu da iki formada özünü göstərir:

- qrupun maksimum təsirinə düşmək;
- qrupun dəyərlərinə tam müqavimət göstərmək və onları inkar etmək.

Sinifdə pozitiv münasibətlərin formalaşması üçün maneə yaradan son dərəcə təhlükəli amil ətrafdakılara intriqa toru toxuyan, sinif yoldaşlarına özündən razılıq və hörmətsizlik nümayiş etdirən bir qrup "peşəkar təhrikçilər" ola bilər. İnkişaf etməmiş ünsiyyət bacarıqları və aşağı səviyyəli özünənəzarət emosiya sıçrayışlarına və fiziki gücün istifadəsinə səbəb olur. Uşaq sözlə izah edə bilmədiyini yumruqla izah edir! Onun özünə diqqət çəkmək üçün istifadə etdiyi fiziki aqressiya sinif yoldaşlarının tamamilə haqlı müqaviməti ilə qarşılaşır və bu da davamlı toqquşmaların artmasına, münasibətlərin aydınlaşmasına, qarşılıqlı iddiaların ortaya çıxmasına gətirib çıxarır.

Yeniyetmə məktəblilər arasında baş verən münaqişələrin xüsusiyyətləri kiçik yaşlı məktəblilərdə olduğundan tamamilə fərqlənir. Yeniyetməlik yaş dövrünü təsvir edən L.İ.Bojoviç yazırdı: «Bu dövrdə uşağın cəmiyyətlə və özü ilə olan bütün keçmiş münasibətləri pozulur, yenidən qurulur və nəticədə, müstəqil həyat mövqeyinə aparan özünüdərk və öz müqəddəratını təyinetmə prosesləri inkişaf edir» [Bojoviç L.İ., 1968].

Yeniyetməlik dövrü tədqiqatçılar arasında hər zaman maraq oyatmış və maraq oyatmaqda da davam edir. Bu dövrü tədqiq edən mütəxəssislər özlərini deviant davranış üzrə mütəxəssis hesab etməkdə haqlıdırlar. Yeniyetmə məktəblilərin psixopedaqoji müşahidələri zamanı əldə edilən məlumatlar bir çox fizioloji və psixi proseslərin yalnız yetkinlik dövrünün başlanğıcında kəskinləşmədiyini, hətta ömürlərinin sonuna qədər davam edə biləcəyini iddia etməyə əsas verir.

Qızlarda mənfi fazanın ümumi müddəti 10 yaşdan 13 yaşa qədər, oğlanlarda isə 14 ilə 16 yaş arasında müşahidə edilir. Mənfi fazanın sonu fiziki, psixi və sosial yetkinləşmənin başa çatması ilə xarakterizə olunur. Yeniyetməlik dövrünün yuxarı sərhədləri barədə danışan V.Şubart bunun 21 və ya 24 yaşda sona çatacağını qeyd edir, çünki bu dövrdə xarakterin nisbətən sabitləşməsi və yetkinliyin başlanğıcı müşahidə olunur.

Almaniya və Rusiyanın bir sıra məktəblərində aparılan sosioloji araşdırmaların məlumatlarının təhlili nəticəsində aşağıdakı nəticələrə gəlinib:

- Məktəblilərdə münaqişəli davranışlar təlimdə uğursuzluqlar, problemli sosiallaşma və yetkinləşmə dövründə müşahidə olunur.
- Şagirdlərin iddiasından asılı olaraq, münaqişələrin sayı əhəmiyyətli dərə-

cədə artır.

● Oğlanlarda, qızlara nisbətən, daha intensiv, fərqli münaqişəli davranış formalarına rast gəlinir. Yuxarı sinif şagirdləri yaşıdları və müəllimlərlə münaqişələrə daha çox meyillidirlər (dərsdən qaçmaq, yalan danışmaq, müəllimlərə psixoloji təzyiq göstərmək, "imtinalar" yazmaq və şikayət etmək).

İbtidai sinif şagirdləri yuxarı sinif şagirdlərinin hücumlarına daha çox məruz qalırlar. Yuxarı sinif şagirdləri onlardan pul, bahalı bəzək əşyaları və ya cib telefonlarını alır, təhqir və təzyiq edirlər.

Kiçikyaşlı məktəblilərin münaqişəli davranışları həmyaşıdlar arasında adaptasiya mexanizmlərindən biridir. Passivlik və özünütəcrid, yaşıdları ilə toqquşmalardan qaçmaq onların məktəbdə uğurlu sosiallaşmasına mane ola bilər. Məktəblilərlə aparılan profilaktik və korreksiya işləri çərçivəsində yalnız münaqişənin deyil, həm də passiv davranışın əsas səbəblərini və xüsusiyyətlərini müəyyənləşdirmək çox vacibdir. Müəllimlər xüsusilə, özlərini müdafiə etməyi bacarmayan, istehzalardan və həmyaşıdlarının hücumlarından əziyyət çəkən, *viktim davranışları* (cinayət qurbanına çevrilməyə meyillilik) olan məktəblilərə diqqət yetirməlidirlər. Şagirdlərdən fərqli olaraq, müəllimlərdə münaqişələrin təşəbbüskarı və ya əsas iştirakçısı kimi çıxış etmək ehtimalı çox azdır, lakin buna baxmayaraq, onlar sinifdəki qaydaları və tarazlığı bərpa etmək üçün xeyli vaxt və enerji sərf etməlidirlər. Müəllimlərin cəlb olunduqları münaqişə vəziyyətlərinin təməlini bütöv səbəblər kompleksi təmsil edə bilər:

● müəllimin dərs prosesində və ya tənəffüs zamanı şagirdlərin davranışlarını proqnozlaşdıra bilməməsi;

● dərsin planlaşdırılmış gedişatını pozan şagirdlərin hərəkətlərinin gözlənilməzliyi;

● müəllimin hər vasitə ilə öz statusunu qorumaq istəyi;

● müəllim tərəfindən şagirdin əməli deyil, şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi, həddindən artıq sərtlik və tələbkarlıq;

● ailəyə proyeksiya, müəllimin valideynlərin mənfi keyfiyyətlərini və bütövlükdə ailənin həyat tərzini vurğulamaq cəhdi;

● müəllimin şagirdin şəxsi problemlərinə laqeyd qalması və s.

Daha çox münaqişəli olan müəllimlər, bir qayda olaraq, yalnız qeyri-sabit psixikaya malik olan, fərdi xarakterli problemləri (şəxsi həyat, gündəlik problemlər, sağlamlıq problemləri, maliyyə çatışmazlığı və s.) olan müəllimlərdir. Öz aqressiyası, cinsi və gender identikliyi məsələləri ilə məşğul olmayan müəllimlərin şagirdlərlə, xüsusilə də yeniyetmələrlə işləyərkən münaqişələr qaçılmaz olacaq.

Qarşılıqlı fəaliyyət zamanı münaqişələr "rəhbərlik-müəllim", "müəllim-müəllim", "rəhbərlik-rəhbərlik", əsasən, pedaqoji prosesin yanlış, subyektiv təşkili, avtoritarlıq və rəhbərlik tərəfindən həddindən artıq təzyiqin olması nəticəsində

yaranır.

Müəllim heyətində münaqişələr bir sıra amillərin təsiri altında yaranır: bir-birinə qarşı qeyri-taktik münasibət, əlverişsiz dərs cədvəli, məktəbdə düşünülməmiş yeniliklər, istirahət üçün vaxtın çatışmazlığı, administrativ vəzifələrin müəllimlərin boynuna qoyulması, tədris yükünün qeyri-bərabər paylanması, rəhbərliyin idarəedici və maliyyə imkanlarından sui-istifadəsi və s.

Tədris mühitindəki münaqişələr daha çox tədris yükü problemindən qaynaqlanır. Q.İ.Kozırev müəllimlərin təqribən 87 %-nin bunu məktəbdaxili qarşıdurmaların əsas səbəbi hesab etdiyini, eyni zamanda həm tədris yükünün çoxluğu, həm də çatışmazlığı ilə razı olmadıqlarını müəyyən edib. [Kozırev Q.İ., 2012]. Müəllim kollektivində gərginlik və münaqişələrin artmasının səbəblərindən biri də müəllimin öz iş fəaliyyətindən məmnunluğu, şagirdlər, valideynlər, həmkarlar və məktəb rəhbərliyinin haqsız ittihamları ola bilər. Məktəblilər qeyd edirlər ki, bəzi müəllimlər səhv davranır, materialı aydın izah etmir, qeyri-adekvat qiymətləndirir, şagirdə subyektiv baxışlarını göstərməyə, fikirlərini söyləməyə imkan vermir, uğursuz və itaətsiz olan şagirdlərə mənfi münasibət bəsləyir, onları sinif yoldaşlarının qarşısında alçaldır və ya sinifdən kənarlaşdırırlar. Sinifdə nizam-intizam qaydalarının pozulması hallarında müxtəlif «pedaqoji» fəndlərə əl atırlar: qaydanı pozan şagirdi sinifdən kənarlaşdırır, gündəliyə iradlarını yazır, direktor və ya təlim-tərbiyə işləri üzrə direktor müavini ilə «qorxudur», qışqırır, valideynləri məktəbə çağırır, ev tapşırıqlarına qərəzli nəzarət edirlər.

Məktəbdə münaqişələr tez-tez baş verir. Üstəlik müəyyən hallarda münaqişə müəllimlər və şagirdlər arasında münasibətlərin normal inkişafına mane olan problemlərin həllində zəruri şərtə çevrilir. Təəssüf ki, hər məktəbin müəllim heyətində münaqişəli vəziyyətlərlə, həll olunmamış problemlərlə (*yarımçıq gestalt*) səriştəli şəkildə işləyə bilən mütəxəssislər olmadığı üçün münaqişələr ciddi şəkildə böyüyür. Bu problemlərin həlli yalnız digər təşkilatların – yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyanın və ya polisin müdaxiləsi sayəsində mümkün olur.

Məktəb münaqişələrinin xüsusiyyətləri. Münaqişələrə səbəb olan sosial və fərdi amillər çoxdur. Onlar müxtəlif təzahür səviyyələrinə malikdir və hər konkret vəziyyət xüsusi olaraq təsnif edilir. Psixoloji və pedaqoji tədqiqatlar göstərir ki, məktəbdə münaqişəli davranışın yaranması üçün əlverişli şərtlər çoxşaxəli ola bilər və ən çox ailə, cəmiyyət, referent qrup və sosiumda formalaşır. Daha az valideyn sevgisi və qayğısı görən uşaqlar, bir qayda olaraq, digər uşaqlara və böyüklərə aqressiv münasibət göstərirlər. Böyüklər tərəfindən "sevilməyən" uşaqlar yaşıdlarına nisbətən daha destruktiv davranırlar. Onlar başqa uşaqlarla münaqişəyə girərkən bir tərəfdən başqalarına qarşı münasibətdə aqressiv olmağın qəbuledilməz olduğunu və buna görə cəzalandırıla biləcəklərini anlamağa başlayır, digər

tərəfdən isə böyüklərin özlərinin də bu hərəkətlərə yol verdiyini görürlər.

Məktəblilərin münaqişəli davranışlarının səbəblərini öyrənərkən subyektiv və mədəni amilləri nəzərə almaq lazımdır. Qrupda mənfi davranışın formalaşması yeniyetmələrə xas olan "mövqeyi" və hamı kimi olmaq istəyi ilə izah olunur. Bəzi tədqiqatçılar aqressiv və münaqişəli uşaqların müxtəlif neqativ davranışlara (spirtli içkilərə meyillilik, mübahisələr və münaqişələr, ətrafdakılara hücumlar və s.) meyilli olduqlarını iddia edirlər. Məktəbdə gizlin şəkildə pivə içmək, siqaret çəkmək özünü nüfuzlu və daha böyük göstərmək arzusundan irəli gəlir. Yeniyetmə gündəlik həyatda yaşadığı sıxıntıları, hüquqlarının pozulmasını isə fərdi və kütləvi münaqişələrdə iştirak etməsi ilə kompensasiya edir.

Müəllimlər və həmyaşıdlarının münaqişəli uşaqlara mənfi münasibəti münaqişənin təzahürü üçün əlavə psixoloji təsirdir. Belə ki, uşaq «pis» və ya «sinfin təlxəyi» rolunu oynamağa məcbur olduğunu hiss edir və özünü daim bu rola uyğun aparmalı olur. Müəllimlərin belə şagirdlərə qarşı yanlış mövqe tutmaqla onları lazımsız münaqişələrə təhrik etmələrinə də tez-tez rast gəlinir. Belə şagirdlər zəif, yığma siniflərə keçirilir və ya fərdi təhsilə cəlb olunurlar. İlk baxışdan pedaqoji cəhətdən nəcib görünən bu addım sonradan mənfi nəticəyə gətirib çıxarır. Problemli şagirdin zəif sinfə keçirilməsi onu tərbiyələndirmir, əksinə, onun cəmiyyətdə qarşılıqlı fəaliyyət çevrəsini xeyli daraldır. Deməli, bu, qəzəb və intiqamı əvvəlcədən təyin edən, pedaqoji cəhətdən yaradılan süni vəziyyətdir.

Məktəblilər arasında ən çox ehtimal olunan münaqişəli davranışların mənbələrini müəyyənləşdirərkən müəllimlərə və onların pedaqoji fəaliyyətdə rastlaşdığı münaqişələrə diqqət yetirmək lazımdır. Psixoloji və pedaqoji ədəbiyyatlarda münaqişələri 10 tipə ayırırlar:

1) müəllim–şagird münaqişələri;
2) şagird–şagird münaqişələri;
3) övlad– valideyn münaqişələri;
4) şagird – rəhbərlik münaqişələri;
5) müəllim–müəllim münaqişələri;
6) müəllim– valideyn münaqişələri;
7) müəllim–rəhbərlik münaqişələri;
8) valideyn – valideyn münaqişələri;
9) valideynlər – rəhbərlik münaqişələri;
10) rəhbərlik – rəhbərlik münaqişələri [Bojoviç L.İ.,1968].

Münaqişələrin reytinqində birinci yeri, şübhəsiz, məktəblilər arasında münaqişələr tutur. Ən çox yayılmış münaqişə növlərindən ikincisi müəllim və şagirdlər arasındakı münaqişələrdir. Məktəbdə rast gəlinən üçüncü münaqişə növü müəllim-valideyn münaqişələridir. Təhsil mühitində aparılan uzunmüddətli müşahidələrə görə, digər münaqişələrə yuxarıda göstərilənlərdən daha az rast gəlinir.

Məktəblilərin şəxsiyyətlərarası münasibətlərində qeyri-rəsmi qarşılıqlı təsir prosesində özünü büruzə verən inanılmaz sayda münaqişəli situasiyaları ayırmaq mümkündür. "Münaqişə qaçılmazdır, əgər:

● uşaqlardan biri başqasının əşyalarını soruşmadan götürərsə, (məsələn, bir oğlan bir qızın partasından qələm qutusu götürür və qız oğlana təhqir və ya zərbə ilə cavab verir);

● hər hansı bir şagird yaşıdları ilə mübahisədə məğlub vəziyyətə düşərsə;

● uşaq inciklik və ya həsəd hissi keçirərsə, özünü alçaldılmış hiss edərsə ("başqaları üçün hər şey daha yaxşıdır, onlar məndən daha uğurlu, daha xoşbəxtdir" və s.);

● uşaqlardan biri digərini istəmədən və ya qəsdən itələyərsə;

● yeniyetmə sinif yoldaşını tənqid və ya münaqişəyə təhrik edərsə;

● uşaqlardan birinin haqqında inanılmaz hekayələr uydurular, şayiələr yayılarsa;

● uşaqlardan biri digərini qəsdən incidər, şəxsi əşyalarını, məktəb ləvazimatlarını xarab edər və gizlədərsə;

● uşağın çatışmazlıqlarına istehza edilərsə (böyük burun, saç rəngi, eynək, standart olmayan saç düzümü, köklük, fiziki qüsur və s);

● uşaq müəllimə şikayət edib, kiminsə şəxsi sirlərini açarsa;

● uşaqlardan biri digərini gizlicə, jestlərlə təhqir edərsə;

● uşaqlardan biri digərinin qohumlarına, valideynlərinə və ya yaxınlarına hörmətsizlik edib təhqir edərsə" [Qrebenkin Y.V., 2013].

Məktəblilər arasındakı qarşıdurmalar, bir qayda olaraq, şifahi təxribatlarla başlayır. Alçaldıcı şərhlər uşağı fiziki təsirdən daha çox yaralaya bilər. R.Baron və D.Riçardsona görə, məktəbli ona görə avtoritet olan şəxsin və ya sinif yoldaşının yanında bilərəkdən alçaldılarsa, ona təxribat xarakterli şərhlər edilərsə, onun üçün son dərəcə xoşagəlməz məyusluq vəziyyəti yarana bilər. Təxribat xarakterli hərəkətlər müdafiə reaksiyası yaradır və münaqişəyə səbəb olur.

Sxem 1

**Münaqişəyə səbəb ola biləcək qarşılıqlı əlaqə modeli**

Şagird A şagird B-ni təhqir edir.

↓

Şagird A şagird B-nin təhqirinə təhqirlə cavab verir.

↓

Şagird A ilə şagird B-nin arasında mübahisə başlayır.

↓

Təhdidlər və əks-təhdidlər davam edir.

↓

Fiziki hücum

Həmyaşıdların təxribatçı hərəkətlərinə cavab müxtəlif cür ola bilər: tam görməzlikdən gəlmək və münaqişədən qaçmaqdan verbal və fiziki hücumlaradək (itələmək, vurmaq, yıxmaq, söymək, təhqir etmək və s.). Ənənəvi olaraq, oğlanlar fiziki güc tətbiqinə, qızlar isə əksinə – psixoloji və şifahi təhdidlərə daha çox meyillidirlər. Fiziki cəhətdən güclü olan oğlanlar dominantlıq edir və referent qrup daxilində təhrikçi və ya hakim kimi çıxış edirlər. Qızların münaqişəsi əksər hallarda dolayı yollarla özünü göstərir: bir qrup dostun təhrikedici manipulyasiyası, dedi-qodu, şayiələr yaymaq və s.

Müəllim-şagird münasibətlərində şəxsi simpatiya mühüm rol oynayır. Şagirdlərin çoxu bəzi fənləri onları tədris edən müəllimləri sevdiklərinə görə oxuduqlarını iddia edirlər. Əksinə, münasibət qura bilmədiyi müəllimlərin dərsində bilərəkdən nizam-intizam qaydalarını pozur, həmin dərslərdən qaçırlar.

Uşağın münaqişəli davranışı ailə şəraiti ilə yanaşı, müəllimlər, həmyaşıdları, cinayətyönümlü insanlarla qarşılıqlı əlaqədə formalaşır. Bu, psixikanın xüsusiyyətlərindən, emosiyalarını idarə etmək bacarığından asılı ola bilər. Yeniyetmələrin münaqişəli davranışına təsir edən əsas amillər arasında aşağıdakılar qeyd olunmalıdır:

- fərdi amillər (diqqət çatışmazlığı, tərbiyənin, intellektin aşağı səviyyəsi, na-

tamamlıq kompleksi, impulsivlik, “aqressor” və ya “qurban” təcrübəsi, özünənəzarət bacarıqlarının olmaması və ya az inkişaf etməsi, yüksək iddialılıq və imkanların aşağı səviyyəsi, özünüqoruma hissinin məhdudluğu və s.);

● sosial amillər (sinif yoldaşları tərəfindən rəddedilmə, yaxın sosial əhatədə yüksək dərəcəli şiddət, ailənin maddi problemləri, tərbiyəçilərin dəyişməsi (ögey ata, ögey ana), ailədə amansız rəftar, məqsədsiz vaxt keçirmə, təlim nəticələrinin aşağı olması, şübhəli avtoriteti olan yoldaşlar və s.).

***Konfliktlərin həlli yolları.*** Münaqişələrin müəyyənləşdirilməsi və təhlili üçün bir çox metodlar var. Psixo-pedaqoji tədqiqatların ən məhsuldar metodlarından biri müşahidədir. Müşahidə münaqişə haqqında dəyərli məlumat mənbəyidir və qarşı tərəflərin davranışlarını öyrənməyə imkan verir, məsələn, müəllimin diqqətini dərslərdə, tənəffüsdə və ya ortaq dərslər zamanı şagirdlərin münaqişəli davranışlarına yönəltməsi onun pedaqoji uzaqgörənliyinin göstəricisidir.

Uşaqların məktəbdə və evdə fərqli davranmaları məlumdur. Valideynlərlə söhbət zamanı məlum olur ki, qüsursuz, itaətkar ev uşağı nədənsə müəllimlərin və sinif yoldaşlarının şikayət etdiyi idarəolunmaz bir «məktəb canavarı»na çevrilir. Valideyn iclaslarında və ya direktorun kabinetində “günahkar”ın valideynləri övladını müdafiəyə qalxaraq, uşağa böhtan atıldığını, onun qiymətlərinin aşağı salındığını, sinif yoldaşlarının ona qarşı çıxdığını bəyan edirlər. Öz ailələrindəki problemləri (tərbiyədəki boşluqlar, diqqət çatışmazlığı və s.) təhlil etmək istəmədikləri üçün bütün problemlərə görə səhv davranan və “qeyri-standart” şagirdə adekvat yanaşma forması tapa bilməyən müəllimləri və ya məktəb rəhbərlərini, digər uşaqları günahlandırırlar.

Əksər məktəblilər (xüsusilə yeniyetmələr) valideynlərindən utanır və müxtəlif hiyləgərliklərdən istifadə edərək, onların məktəblə əlaqəsinə mane olmağa çalışır, yaşıdlarının rişxənd etmələrinə səbəb ola biləcək və sosial statusunu əhəmiyyətli dərəcədə aşağı sala biləcək müdaxilələrə son dərəcə kəskin reaksiya göstərirlər. Bu səbəbdən valideyni məktəbə çox müstəsna və ya böhranlı hallarda (şagirdin məktəbə getmək istəməməsi, özünə bədən xəsarəti yetirməsi, özünəhörmətin kəskin azalması, intihar düşüncələri və ya cəhdləri) çağırmaq lazımdır.

Böhran vəziyyəti başlamazdan əvvəl kömək üçün məktəb psixoloquna, sinif rəhbərinə müraciət edilməli, problem barədə onlara məlumat verilməli və bundan sonra problem birlikdə həll edilməlidir. Heç bir halda, hətta uşaqlar günahkar olduqda belə, onlara səs ucaldılmamalı, əl qaldırılmamalıdır. Yetkinlik yaşına çatmayanların hüquqi nümayəndələrinin iştirakı olmadan verilən cəza onun həyat və sağlamlığına təhlükə kimi qiymətləndirilir. Hüquq-mühafizə orqanlarına uşaq hüquqlarının pozulması ilə bağlı verilən şikayətlər yeni münaqişənin yaranmasına səbəb ola bilər.

Problemi həll etmək üçün ikinci variant müstəqil mütəxəssis dəvət etməkdir.

Müstəqil mütəxəssis uşağın tanımadığı, fikirləri valideynlər üçün əhəmiyyət kəsb edən bir insan olmalıdır, məsələn, şəhər və ya rayon psixoloji mərkəzindən gələn bir psixoloq, həmin sinifdə və ya məktəbdə tədris etməyən bir müəllim. Təcrübə göstərir ki, "münaqişəli" uşaqların valideynləri psixoloqa və ya uşaq psixiatrına müraciət etməkdənsə, böyük inam hissi ilə müəllimin kömək təklifini qəbul edirlər.

O.S.Qrebenyuk müəllimlərin, psixoloqların və valideynlərin diqqət mərkəzinə çevrilən bir şagirdi müşahidə etmək üçün aşağıdakı proqramdan istifadə olunmasını təklif edir:

1. dərsdə şagirdin əhvali-ruhiyyəsini (aqressiv, sakit, yaxşı, laqeyd, məzlum, narahat, həyəcanlı, ağrılı və s.) müşahidə etmək;

2. şagirdin özünə qarşı inamsızlıq, narahatlıq hiss etdiyi tipik vəziyyətləri (sorğu-sual, müzakirədə iştirak və problemli öyrənmə formaları, testlər və s.) öyrənmək;

3. şagirdin münaqişə vəziyyətlərində iştirakı (heç vaxt heç kimlə münaqişə etmədikdə, hər hansı səbəbdən özü münaqişə yaratdıqda və ya heç bir səbəbi olmayan münaqişə zamanı) haqqında məlumat toplamaq;

4. şagirdin cəlb olunduğu münaqişənin obyekti (müəllimin haqsız hərəkətləri: aşağı qiymətləndirmə, haqsız tələb və s.; müəllimin qeyri-pedaqoji hərəkətləri (kobudluq, qəddarlıq, təhqir və s.); pedaqoji bacarıqlarının olmaması (müəllim yaxşı izah etmir, maraqsız dərs keçir, uşaqların şəxsi fikirlərini ifadə etmələrinə imkan vermir, ancaq öz fikirlərini və qiymətləndirmələrini tətbiq edir və s.); müəllimə qarşı düşmənçiliyin təzahürü və s. haqqında məlumat toplamaq;

5. şagirdin münaqişəli davranışını müşayiət edən emosiyaları (səbrsizlik, qəzəb, qıcıqlanma, inciklik, mübarizənin nəticələrini gözləmədən həyəcan keçirmək, rəqibə canlı maraq, müvəffəqiyyət ümidi, rəqibə qarşı qəbul edilmiş arqumentlərdən zövq almaq və s.) müşahidə etmək;

6. münaqişəli davranış formalarını (susqunluq, nümayişkaranə geri çəkilmə, gizli qəzəb, heç bir şey olmamış kimi davranmağa davam etmək; qarşı tərəfin səhv etdiyini sübut etməyə çalışmaq; mübahisələr, fiziki şiddət, müttəfiqləri köməyə çağırmaq, təslim olmaq, ədalətli nəticə axtarmaq, münasibətləri üz-üzə həll etməyə üstünlük vermək, şərtlərdən asılı olaraq fərqli strategiyalardan istifadə etmək və s.) müşahidə və təhlil etmək;

7. şagirdin iştirak etdiyi münaqişə vəziyyətlərinin növləri (xarici görünüşlə bağlı situasiyalar, təhsil fəaliyyətləri, münasibətlər; iş və ya emosional münaqişələr) haqqında məlumat toplamaq [Qrebenyuk O.S., 2001].

***Münaqişələr məktəb həyatının bir hissəsidir.*** Demək olar ki, hər bir müəllim münaqişəni neytrallaşdırmağa və qeyri-standart vəziyyətləri daha konstruktiv şəkildə idarə etməyə çalışır, lakin buna baxmayaraq, məktəb mühitində baş verən

stressli vəziyyətlər, enerji və vaxt çatışmazlığı bu problemin həllində formalizmə gətirib çıxarır. Müəllimlər münaqişə zamanı təhrikçini müəyyən etməyə, günahkarları və günahsızları tapmağa, bir şagirdi qınamağa, digərini isə qorumağa, qarşı tərəfin davranışlarının əsl motivlərini müəyyən etməyə çalışırlar.

Demək olar ki, hər sinifdə müntəzəm olaraq münaqişələrdə iştirak edən aqressiv və ya qurban davranışı ilə diqqəti cəlb edən uşaqlar var. Uşağın yaşıdlar qrupundakı statusu, əsasən, onun fərdi keyfiyyətlərindən (ünsiyyət qurmaq, sözlü və qeyri-verbal şəkildə özünə diqqət cəlb etmək, düşüncə və istəklərini aydın, adekvat ifadə etmək, başqalarının hərəkətlərini başa düşmək və s.) asılıdır. Buna görə qeyri-adekvat məktəblilərə emosiyalarını idarəetmə qabiliyyətini öyrətmək, onlarda qorxu və aqressiyanı ifadə etmək üçün alternativ yolları inkişaf etdirmək çox vacibdir. Sinif yoldaşları və ya müəllimlər tərəfindən münaqişəyə cəlb olunan şagirdlər, bir qayda olaraq, səslərini çıxarmaqdan çəkinir və açıq şəkildə fikirlərini bildirməməyi, heç bir şey etməyə təşəbbüs göstərməməyi, nadir hallarda əl qaldırıb fikirlərini müdafiə etməyi üstün tuturlar. Aqressiv şagirdlər yalnız sinif yoldaşları ilə deyil, həm də müəllimlərlə münasibətdə münaqişə strategiyasını seçirlər. Hər zaman özlərini hadisələrin mərkəzində tapır, müəllimə dərs keçməyə, sinif yoldaşlarına isə işləməyə imkan vermir, müəllimlər və sinif yoldaşları üzərində “hakimiyyət qurmağa” çalışır, aqressiv davranışları ilə müəllimə meydan oxuyurlar: “Mənə heç nə edə bilməzsiniz”; “Ən yaxşı bacardığınız valideynləri məktəbə çağırmaqdır”; “Anam məktəbə gələcək və prokurorluğa sizdən şikayət edəcək”; «Onsuz da 9-cu sinfə qədər mənə dözmək məcburiyyətindəsiniz» və s. Bəzi şagirdlər üçün sinifdə olmağın əsas məqsədi “tamaşa göstərmək” və ya müəllimin qəbul etmədiyi qaydalarla oynamaqdır. Onlar birbaşa müəllimdən, sinif yoldaşlarından, valideynlərdən və ya onları rədd edən cəmiyyətdən intiqam almağa çalışırlar.

Bəzən uşaqla ürəkdən, səmimi söhbət etmək, ona yığılmış emosiyalarını tökməyə imkan yaratmaq kifayətdir, bəzən isə başqa bir çətin uşağa kömək edərkən bir neçə mütəxəssisin iştirakı ilə uzun müddətli, yorucu iş tələb oluna bilər. “Hər bir şagirdin problemi fərdidir və problemli uşaqları problemli valideynlər tərbiyə etdikləri üçün ilk baxışdan nə qədər sadə və aydın görünsə də, standart həll formaları qəbul olunmur” [Qrebenkin Y.V., 2006]. Əlbəttə, təcrübəli müəllim qarşıdurmanın mənfi nəticələrini əvvəlcədən görməlidir, lakin onun münaqişədəki konstruktiv mövqeyi yalnız müəyyən bilik, təcrübə və intuisiyadan deyil, həm də öz emosiyalarını idarə etmək, işlədiyi sinifdə şəxsiyyətlərarası münasibətlərin xüsusiyyətlərini anlamaq bacarığından asılıdır. Əsasən qadınlardan ibarət olan məktəb müəllimləri münaqişələrə daha çox emosional reaksiya göstərir, onlara neqativ qiymət verirlər. Mənfi emosiyaların üstünlüyü rasional yanaşmanın rolunun azalmasına gətirib çıxarır və müəllimin davranışında qeyri-sabit elementlər

özünü göstərir: qışqırmaq, incimək, moizə oxumaq, şagirdi davranışına görə ittiham etmək, valideynləri məktəbə çağırmaq, kömək üçün direktor və ya direktor müavinlərinə müraciət etmək və s.

Bəzən məktəbdə münaqişələrin çoxalmasının səbəbi bəzi müəllimlərin ünsiyyət mədəniyyətinin aşağı olması olur. Belə müəllimlər, bir qayda olaraq, mənfi emosiyalarını cilovlaya bilmir, özlərinə sərt və küskün olmağa imkan verir, şagirdlərə çox sərt və təhqiramiz sözlər ünvanlamaqla onları həmyaşıdları qarşısında pis vəziyyətdə qoyurlar. Bəzi hallarda münaqişələr çox düzgün, peşəkar və savadlı həll olunur, bəzilərində isə əksinə, bütün münaqişə tərəfləri üçün mənfi nəticə alına bilər. Belə mürəkkəb münaqişələrlə məşğul olmaq məktəb rəhbərliyinin üzərinə düşür. Təbii ki, məktəbdə münaqişələrin həlli və yatırılması yolları direktorun, rəhbərliyin digər nümayəndələrinin və bütövlükdə müəllim kollektivinin xoşməramlılığından asılıdır.

Ciddi münaqişələr yarandıqda, xüsusən şagirdlərin bir-birinə xəsarət yetirmələri və ya davranışlarının təlim prosesində ciddi pozulmalar yaratması hallarında vəziyyət məktəb rəhbərlərini sərt tədbirlər görməyə vadar edir. Məktəblərin əksəriyyətində münaqişələrin həlli üçün, ənənəvi olaraq, müxtəlif yanaşmalardan istifadə edirlər.

**1.** İnzibati yanaşma – sinifdə, direktorun kabinetində, pedaqoji şurada və ya yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiə olunması üzrə komissiyanın iclasında tətbiq olunur. Müəllimlərin və rəhbərliyin əsas məqsədi günahkarı tapıb, başqalarına nümunə olsun deyə, onu cəzalandırmaqdır. Qarşı tərəfin hücumuna məruz qalan uşağın özünün də münaqişəyə təhrik etməkdə günahlandırıldığı vaxtlar olur. İnzibati tərbiyə təzyiq, problemin rəsmi həlli nəticəsində baş verir. Bu zaman şagirdlər bəzən üzr istəməyə, əl sıxmağa və sülh bağlamağa məcbur olurlar. Münaqişələrin inzibati yollarla həlli məktəbdən xaric edilmə və ya başqa məktəbə köçürülmə ilə də nəticələnə bilər. Münaqişə komissiyanın qərarı, direktorun əmri, pedaqoji şuranın qərarı, məktəbdaxili qeydiyyata götürülmə, yəni hökm yolu ilə həll olunur.

**2. “Məktəbdən sonra danışaq”** – münasibətlərin qeyri-rəsmi yolla aydınlaşdırılması uşaqlar arasında məktəbdən kənarda yarıkriminal “münasibətlərin aydınlaşdırılması”dır. Bəzi hallarda müəllimlər və valideynlər şagirdlərin arasında ciddi münaqişələrin mövcudluğunun fərqində olmurlar. Məktəblilər arasında pərdəarxası münasibətlərin aydınlaşdırılmasının əsas məqsədi status qazanmaqla fiziki və ya psixoloji üstünlük nümayiş etdirməkdir. Belə münaqişələrdə, bir qayda olaraq, daha güclü olan haqlı çıxır. Münaqişədə qalib gələnlər həmyaşıdları və ya kütlə tərəfindən dəstəklənən, yaşca böyük və “nüfuzlu” yeniyetmələrdir.

**3**. İbrətamiz söhbətlər üçün aqressorun sosial pedaqoqa və ya psixoloqa göndərilməsi. Profilaktik söhbət yanğınsöndürmə prosesinə bənzəyir.Yanğın söndü-

rülə bilər, lakin onun nəticələri dağıdıcı olaraq qalır. Məktəblilərin davranışlarının öyrənilməsi göstərir ki, onlar sosial pedaqoqun kabinetində baş verənləri o qədər də başa düşmürlər. Yüksək səs tonu, söhbətin məzmunu günahkarı daim özünü müdafiə etməyə vadar edir və o, günahı zərərçəkənin üzərinə yükləyir. Bir çox uşaqlar üçün psixoloqun qəbuluna getmək inamsızlığa və ehtiyatlılığa səbəb olur.

**4. Valideynlərlə səmimi söhbət**. Valideynlər uşağın münaqişəli davranışını ört-basdır etmək və ya əksinə, təşviq etməklə səmimi qəlbdən onun rifahının qeydinə qaldıqlarından əmindirlər. Uşaqlar arasındakı münasibətlərdə böyüklərin özlərinə və övladlarına qarşı münasibətləri əks olunur. "Mənim uşağım belə edə bilməz"; "O, belə bir söz işlədə bilməz, davanı o başlaya bilməz» və s. deyən valideynlərlə səmimi söhbət zamanı onlara "münaqişə tarixçəsi", problemin mahiyyəti daha aydın olur. Uşağın davranışının yeni və təkzibedilməz faktlarını öyrəndikdə özləri də münaqişədən uşaq üçün daha "az itki ilə" necə çıxacaqlarını bilmirlər. Hər iki tərəfin valideynləri direktorla və ya təlim-tərbiyə üzrə direktor müavini ilə söhbətə dəvət olunurlar. Bu görüşlərdə mənfi emosiyaların sıçrayışı, dialoqu əngəlləyən, münaqişənin həllini çətinləşdirən, bəzi hallarda onun daha da böyüməsinə səbəb olan real və qeyri-real incikliklərə görə qisas almaq istəyi olur. Bəzən xəsarət alan uşağın valideynlərinin günahkara hücum etmələri, onun valideynləri ilə münaqişəyə girmələri, müxtəlif orqanlara şikayət və ərizələr yazmaları, şagirdlər və müəllimlər barəsində ittiham xarakterli materiallar toplamaları halları müşahidə olunur. Valideynlərin "uşağın hüquqları" uğrunda apardığı mübarizə nəticəsində münaqişə böyüyür, uzanır, "hərb meydanı"nda yeni "müttəfiqlər" və "rəqiblər" meydana çıxır.

Münaqişənin yanlış həll edilməsi nəticəsində uduzan tərəfdə qisas almaq, narahatlıq, məyusluq və qorxu hissləri baş qaldırır. Günahkar özünə bəraət qazandırmaq və səhvini düzəltmək, zərərçəkənə dəymiş ziyanı ödəmək imkanını itirir. Belə görüşlərdə müəllimlər və valideynlər nadir hallarda ortaq bir məxrəcə gəlib, bunun ümumi problem olduğunu və bu səbəbdən birlikdə çıxış yolu axtarmalı olduqlarını düşünürlər. Bəzən böyüklər bir-biri ilə «mübarizəyə» o qədər aludə olurlar ki, uşaqların maraqlarını, münaqişənin səbəblərini tamamilə unudurlar. Ənənəvi məktəb qarşıdurmalarının həlli yolları bir sıra mühüm çatışmazlıqlara malikdir, çünki onlar qarşı tərəfin öz fəaliyyətlərini müəyyən qaydalar, müəyyən edilmiş tənzimləyici və qanuni sərhədlər çərçivəsində həyata keçirmələrinə imkan vermirlər. Qarşı tərəflər arasında manevr etmək məcburiyyətində qalan, münaqişənin güzəştli həllinə çalışan rəhbərlik, təəssüf ki, buna həmişə nail ola bilmir.

Müəllimlər, xüsusilə təcrübəli müəllimlər münaqişələrin həlli üçün, əsasən, imtina edilməsi çətin olan ənənəvi üsullardan fəal şəkildə istifadə edirlər. XXI

əsrin məktəblərində mövcud olan münaqişələri aradan qaldırmaq üçün müasir metod və texnologiyalar tətbiq edilməlidir. Qeyri-standart ideya və yanaşmaların istifadəsi yalnız pedaqoji şurada tərtib edilmiş vahid psixopedaqoji planın köməyi ilə mümkündür. Psixopedaqoji planda məktəb psixoloqunun məlumatlarına əsasən, şagirdin probleminin mahiyyəti əks etdirilməlidir. Sənədə dəqiq formalaşdırılmış pedaqoji məqsəd, sinifdə ciddi davranış pozulmaları olan şagirdlərlə, eyni zamanda valideynlər, fənn müəllimləri ilə keçirilməsi vacib olan məsləhətləşmə və treninq proqramları daxil olmalıdır. Planda, həmçinin korrektiv tərbiyə işlərinin davam ediləcəyi barədə dəqiq vaxt göstərilməlidir.

Məktəb münaqişələrin həllində ən ciddi maneə müəllimlərin və valideynlərin əksəriyyəti tərəfindən seçilən qeyri-effektiv davranış strategiyası – qarşıdurma strategiyasıdır. Çox vaxt onlar öz mənafelərini müdafiə edərək münaqişənin yalnız bir həll yolunu göstərirlər ("uşağım günahsızdır", "şagirdin öz səhvidir, böyüklərin nöqteyi-nəzərini qəbul etməlidir" və s.). Bəzən hakim kimi çıxış edən müəllim vəziyyəti nəzarətdə saxladığına tamamilə əmin olur. Məktəbdə çalışdığı illər ərzində öyrətmək və hökmranlıq etmək vərdişi təcrübəli müəllimə yanılmazlıq və haqlılıq hissi verir. Əlverişli psixoloji iqlimin yaradılması müəllimləri yalnız professional pedaqoji fəaliyyətə deyil, eyni zamanda uyğun insani keyfiyyətlərin, iradi səylərin, əməkdaşlıq etmək və güzəştə getmək bacarıqlarının inkişaf etdirilməsinə də yönəldir.

**Məktəbdə münaqişəli situasiyaların həlli yolları.** Müasir ədəbiyyatlarda münaqişələrin, mübahisələrin həlli və idarə edilməsinə iki aspektdən nəzər salınır: daxili və xarici. Bunlardan birincisi, daxili aspekt, qarşıdurmada öz davranışını idarə etmək deməkdir. Bu, psixoloji xarakter daşıyır. Münaqişənin idarə olunmasının ikinci, xarici aspekti isə, mürəkkəb vəziyyətin təşkilati və texnoloji tərəfidir. Buraya, subyekt olaraq, idarəçi müəllim, lider və vasitəçi daxil ola bilərlər. Münaqişələrin idarə edilməsində əsas məqsəd onların destruktiv təsirinin qarşısını almaq və onu konstruktiv istiqamətə yönəltməkdir.

Münaqişələrin idarə olunması, mürəkkəb bir proses kimi, aşağıdakı fəaliyyətləri əhatə edir:

- münaqişənin profilaktikası;
- münaqişənin stimullaşdırılması;
- münaqişənin tənzimlənməsi;
- münaqişənin həlli;
- münaqişənin məsləhətləşmələri.

***Münaqişənin profilaktikası*** inkişaf dinamikasında öz fəaliyyətini münaqişənin səbəblərini müəyyənləşdirməyə yönəltmiş müəllimin ən vacib fəaliyyətlərindən biridir. Pedaqoji münaqişələrin qarşısının alınmasının əsas mənbəyi müəllimlər və məktəblilər arasında psixoloji və pedaqoji ziddiyyətlərin yaranmasına

təsir edən amillərin hərtərəfli öyrənilməsi olmalıdır. Şagird kollektivində bu kimi amillər mövcud ola bilər: avtoritar yanaşma tərzi; yüksək sosial gərginlik; liderlik və mikroqruplara bölünmək üçün davamlı mübarizə və s.

Məktəbdə münaqişələrinin profilaktikası iki əsas hədəfi güdməlidir:

● risk altında olan məktəblilərin sosial dezadaptasiyasının dərinləşməsinə imkan verməmək;

● münaqişə səviyyəsini aşağı salmağa kömək edən pedaqoji tədbirlərin spektrini genişləndirmək.

Məktəbin profilaktik funksiyası problemli yeniyetmələrin vaxtında aşkarlanması və onlara pedaqoji, psixoloji, sosial və hüquqi yardımın göstərilməsidir. Münaqişələrin qarşısını almaq üçün əsas vasitələr bunlardır:

● müəllimlərin və məktəblilərin müraciətlərinin nəzərə alınması və ehtiyaclarının ödənilməsi;

● müəllim heyətinin psixoloji adekvatlığı nəzərə alınaraq seçilməsi;

● şəxsi və kollektiv mənafelərə toxunan bütün qərarlarda sosial ədalət prinsipinə riayət edilməsi;

● əməkdaşlar arasında etikanın, psixopedaqoji mədəniyyətin və s. formalaşdırılması.

*Münaqişənin stimullaşdırılması* – münaqişənin subyektlərindən birinin münaqişəyə səbəb olan təxribat xarakterli hərəkətlərini stimullaşdırmaq deməkdir. Münaqişələrin stimullaşdırılması vasitələri müxtəlif ola bilər: problemli bir məsələnin ümumi məktəb iclasında, qrup treninqində müzakirə edilməsi, mövcud vəziyyətin pedaqoji şurada təhlili; kütləvi informasiya vasitələrində ifşaedici materiallarla çıxışların edilməsi və s. Bununla belə, hər hansı münaqişəni stimullaşdıran subyekt onun konstruktiv idarə edilməsinə hazır olmalıdır. Əks halda münaqişə mənfi nəticəyə – idarə olunan münaqişədən idarəolunmaz münaqişəyə qədər gətirib çıxara bilər.

*Münaqişənin tənzimlənməsi* – müəllimin münaqişənin zəifləməsinə və məhdudlaşdırılmasına istiqamətlənən, onun həllinə doğru inkişafını təmin edən fəaliyyət növüdür. Tənzimləmə, mürəkkəb bir proses kimi, təhsil fəaliyyətində nəzərə alınması vacib olan bir sıra mərhələləri əhatə edir:

1-ci mərhələ – münaqişə tərəflərinin münaqişənin reallığını etiraf etmələri;

2-ci mərhələ – münaqişənin legitimləşdirilməsi, yəni münaqişə edən tərəflərin razılığa gəlmələri;

3-cü mərhələ – münaqişənin institutlaşdırılması və mübahisəli məsələləri həll etmək üçün müvafiq strukturların və ya işçi qrupunun yaradılması.

*Münaqişələrin həlli* – müəllimin münaqişəni tamamlaması ilə bağlı fəaliyyət növüdür. Münaqişənin həlli tam və natamam ola bilər. Münaqişənin *tam həlli* onun predmetinin və münaqişə vəziyyətinin aradan qaldırılmasıdır. Problemin

*natamam həlli* isə şagirdlərin maraq və tələbatlarının əsas xüsusiyyətlərinə kifayət qədər diqqət yetirməmək, qarşılıqlı münasibətlərdə bir sıra həll olunmamış problemlərin qalması ilə onları açıq şəkildə qərəzli münasibətlərin yaranmasına təhrik etməkdir. Həll olunmamış münaqişə ona görə təhlükəlidir ki, o, insanın şüuraltında iz qoyur, gözlənilməz anda həyatın müxtəlif dövrlərində xəstəlikdən özünü təcridetməyə qədər gətirib çıxara bilər. Münaqişələrin real həlli müəllim və şagirdlərin, pedaqoji kollektiv daxilində gizlənən ziddiyyətlərin, münaqişələrin, eləcə də potensial müttəfiqlərin, rəqiblərin həqiqi problemlərinin hərtərəfli təhlilini tələb edir.

Məktəbdə münaqişələrin obyektiv və hərtərəfli təhlili üç mərhələdə aparıla bilər.

*1. Diaqnostik* mərhələ – müəllim, valideyn və şagirdlərin iştirak etdiyi sorğu (test). Onun nəticələri profilaktik tədbirlərin aparılmasına xidmət edə bilər.

*2. Analitik mərhələ* – pedaqoji şura toplanır, test nəticələri müzakirə olunur, təhsil müəssisəsinin profilaktik strategiyaları, uzunmüddətli fəaliyyət planı hazırlanır, profilaktika proqramının qəbul olunduğu ümumi konfrans keçirilir, tədbirin keçirilməsində məsul olan şəxslər təyin edilir.

*3. İcra mərhələsi* – məktəblilər arasında təhsil və davranış problemlərinin aradan qaldırılmasına, münaqişə vəziyyətlərinin (sinifdə, müəllim heyətində, məktəblilər və müəllimlər arasında), kəskin və böhranlı vəziyyətlərin (təhsildən yayınma, təlim nailiyyətlərinin səviyyəsinin aşağı düşməsi, intihar cəhdləri və s.) həlli istiqamətində mütəxəssislər dəvət olunur. Məktəblilər, valideynlər, müəllimlərlə qrup məşğələləri (məktəblilər arasında təhsil və sosial bacarıqları inkişaf etdirmək, özünümüdafiə, özünütəşkil, relaksasiya metodları) keçirilir. Məktəblilərə, müəllimlərə və valideynlərə müxtəlif servis xidmətləri və qurumlar (psixoloji, tibbi, sosial, istirahət və s.) haqqında məlumatları özündə əks etdirən reklam informasiyaları təqdim olunur. Hər ümumtəhsil müəssisəsində pedaqoji kollektiv və məktəbin pedaqoji şurası münaqişəli problemlərin həlli istiqamətində məktəb psixoloquna, sahə inspektoruna və ya yetkinlik yaşına çatmayanların işləri üzrə komissiyaya müraciət edə bilərlər.

*Münaqişə məsləhətləşmələri* – məktəb psixoloqu tərəfindən həyata keçirilən, qarşı tərəfin məsləhətə gəlmək istəmədiyi halda münaqişə tərəflərindən biri ilə aparılan işdir. Münaqişə məsləhətləşməsi psixoloji məsləhətləşmədən fərqlənir. Bəzən onların arasında dəqiq sərhədləri təyin etmək kifayət qədər çətindir. Münaqişə məsləhətləşməsi dərin özünütəhlil tələb etmir. Psixoloq, ilk növbədə, təhsil prosesinin hər bir iştirakçısına psixoloji yardım göstərir, müəllim isə şagirdlə qarşılıqlı pedaqoji fəaliyyətin mərkəzindədir. Beləliklə, məktəb münaqişələrinin səbəblərini müəyyənləşdirmək və onların böyüməsinin qarşısını almaq yalnız birgə fəaliyyət şəraitində mümkündür. Münaqişə məsləhətləşmələri əksər mü-

naqişələrin həlli təcrübəsində ən məqbul iş formasıdır. Fikir ayrılıqlarının aradan qaldırılmasında tərəflərin birgə iştirakı bu işin səmərəliliyini artırır, problemin həllini sürətləndirir.

Həmyaşıdlar arasında bir çox münaqişələrin yaranma səbəbi, hər şeydən əvvəl, tərəflərdən birinin qarşı tərəfin nəzər nöqtəsini qəbul etməməsi, onu öz ehtiyac və istəkləri olan bir şəxsiyyət kimi görə bilməməsi ilə bağlıdır. Yuxarıda göstərilən xüsusiyyətlərə malik olan şagirdlər üçün təhrikedici və ya məyusedici vəziyyətlərdə sosial koqnitiv proseslərin və situasiyaya uyğun hərəkətlərin dəyişdirilməsi üçün xüsusi, problemyönümlü ünsiyyət proqramından (sosial-psixoloji treninq) istifadə etmək olar. Belə treninqlər zamanı məktəblilər bir sıra bacarıqlara yiyələnirlər:

a) opponentin reaksiyalarını və gedişatı qabaqcadan görmə bacarığı (fərqli qavrayış);

b) qarşılıqlı təsir strategiyası üzərində düşünmək bacarığı (refleksiya);

c) situasiyaya təsir etmək bacarığı (hərəkət və emosiyalara nəzarət).

Treninq proqramının tematik məşğələləri ilə yanaşı, şagirdlərin özlərinin təşkil etdikləri xüsusi məşğələlər də ola bilər. Bu məşğələlərdə sinif rəhbəri və psixoloqun iştirakı ilə sinifdəki qarşılıqlı münasibətlər və problemlər həll olunur, münasibətlər “çirkabdan təmizlənir”. Uşaqlar sinif yoldaşlarının və müəllimlərin onlara münasibətlərini öyrənirlər. Bu da onlara öz davranışlarını kənardan görüb anlamağa, qiymətləndirməyə, başqalarının mövqeyini normal şəkildə qəbul etməyə kömək edir.

## Nəticə / Conclusion

Məktəbdə təhsil də, digər “insan-insan” sistemindəki qarşılıqlı fəaliyyətlər kimi, münaqişəsiz və ziddiyyətsiz olmur. Şəxsi məsuliyyət, nizam-intizam, bütövlükdə problemə diqqət, hər bir şagirdin davranış dinamikasını izləmək (dinamikanı izləmək epizodik deyil, davamlı xarakter daşımalıdır) lazımdır. Uğur və nailiyyətlərin qeyd edilməsi, qaydalara riayət olunması, hər qayda pozulmasına diqqət yetirilməsi, nəticələrin pedaqoji şurada müzakirə edilməsi və profilaktik fəaliyyətin planlaşdırılması pedaqoji kollektivin qarşılıqlı fəaliyyətinin əsas göstəricisi və məktəblilər üçün yaxşı bir nümunədir. Münaqişələrə qarşı aparılan işin təşkilinin birdəfəlik aksiyaya, yaxud qəbul edilmiş bir normaya çevrilməsi məktəb rəhbərliyinin mövqeyindən asılıdır.

Müəllimlərə verilən məsləhətləri belə qruplaşdırmaq olar: şagirdi təhqir etməmək; şagirdi sinifdən çıxarmamaq; imkan daxilində, rəhbərliyə şikayət etməmək; aqressiyaya qarşı aqressiya nümayiş etdirməmək; şagirdin şəxsiyyətinə toxunmamaq, qiyməti ancaq şagirdin konkret hərəkətlərinə vermək; şagirdə də,

özünə də səhv buraxmaq hüququ vermək (unutmayaq ki, iş görməyən səhv etmir); ziddiyyətin həllinin nəticəsindən asılı olmayaraq, uşaqla münasibətləri pozmamaq (münaqişəyə təəssüfləndiyinizi və ona qarşı münasibətimizin dəyişmədiyini qeyd etmək); şagirdlərlə münaqişədən qorxmamaq, münaqişələrin konstruktiv həlli təşəbbüsünü öz üzərinə götürmək; uşaqların başa düşmək, razılaşmaq, məsləhətləri dinləmək qabiliyyətini qiymətləndirmək.

**Problemin aktuallığı.** Tarixən məktəb münaqişələri həmişə mövcud olmuşdur, bu gün də bu problem aktualdır. Məqalədə bu problem ətraflı tədqiq olunur və onların həlli yolları göstərilir.

**Problemin elmi yeniliyi.** Məqalədə ilk dəfə məktəb münaqişələrinin obyektiv və hərtərəfli təhlili aparılır, onlar qruplaşdırılır, münaqişələrə qarşı aparılan işin təşkili yolları göstərilir. Qeyd olunur ki, bu iş müəllimlərin, valideynlərin və münaqişə tərəflərinin iştirakı ilə aparılmalıdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə qeyd olunur ki, nizam-intizam, ümumiyyətlə bütövlükdə problemə diqqət yetirmək, şagirdlərin davranış dinamikasını izləmək lazımdır. Qaydalara riayət olunması, hər qayda pozulmasına diqqət yetirilməsi, nəticələrin pedaqoji şurada müzakirə edilməsi və profilaktik fəaliyyətin planlaşdırılması pedaqoji kollektivin fəaliyyətinin əsas göstəricisidir. Münaqişələrə qarşı aparılan işin təşkilinin bir normaya çevrilməsi məktəb rəhbərliyinin bu problemə münasibətindən də asılıdır.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Çələbiyev N.Z. (2008). Təhsil sistemində psixoloji xidmət: nəzəriyyə və təcrübə. I hissə. Bakı, ADPU-nun nəşriyyatı.
2. Çələbiyev N.Z. (2009). Təhsil sistemində psixoloji xidmət: nəzəriyyə və təcrübə. II hissə. Bakı, ADPU-nun nəşriyyatı.
3. Xəlilov H. (2012). Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. Bakı, Qafqaz Universitetinin nəşriyyatı.
4. Məmmədzadə R.H. (2004). Konfliktlər, ailələr, məktəblilər. Bakı, "Müəllim" nəşriyyatı.
5. Bojoviç L.İ. (1968). Liçnost i yeyo formirovanie v detskom vozraste: Psixoloqiçeskoe issledovanie / Akad. ped. nauk. SSSR. - M.: "Prosveşenie".
6. Qrebenkin Y.V. (2006). Profilaktika aqressii i nasiliya v şkole. (Uçebno-metod- kompleks). Rostov-na-Donu , "Feniks".
7. Qrebenkin Y.V. (2013). Şkolnaya konfliktologiya dlya pedaqoqov i rodi-

teley. Rostov-na-Donu, “Feniks”.
8. Qrebenyuk O.S. (1996). Obşaya pedaqogika. Kalininqrad.
9. Kozırev Q.İ. (2001). Vvedenie v konfliktoloqiyu: Uçeb. posobie dlya stud. vısş. uçeb. zavedeniy. - M.; Qumanit. izd. sentr VLADOS.
10. Starşenbaum Q.V. (2012). Perejivaya krizis. Rostov-na-Donu, “Feniks”.
11. Şapar V.B. (2010). Psixoloqiya krizisnıx situasiy. Rostov-na-Donu, “Feniks”.
12. Şapar V.B. (2012). Podrostki – neformalı. Rostov-na-Donu, “Feniks”.